2026. Volume 10, Number 1 *Pages 98-107*

UOT: 81'42
DOI: https://doi.org/10.30546/09081.2026.1.1034

44 GÜNLÜK VƏTƏN MÜHARIBƏSI DÖVRÜNDƏ AZƏRBAYCAN DIL KIMLIYININ SIYASI DISKURS ƏSASINDA TƏZAHÜRLƏRİ

Məlihə İBRAHİMLİ

AMEA Nəsimi adına Dilçilik İnstitutu

Meliheibra1981@gmail.com

Məqalə haqqında məlumat	*Xülasə*
Məqalənin tarixçəsi: *Daxil olub: 2025-08-02* *Təkrar işlənmiş formada daxil olub: 2025-08-19* *Qəbul edilib:2025-10-21* *Onlayn əlçatandır: 2026-06-19*	*Bu məqalədə 44 günlük Vətən müharibəsi dövründə siyasi liderin diskursunda dilin strateji təşkili və onun ideoloji-funksional yükü çoxsəviyyəli diskursiv analiz çərçivəsində araşdırılır. Tədqiqatın əsas məqsədi müharibə şəraitində formalaşan siyasi kommunikasiya modelində leksik-semantik, sintaktik-struktur və praqmatik-interaksional vasitələrin qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, eləcə də onların hansının dominant diskursiv mexanizm kimi çıxış etdiyini aşkara çıxarmaqdır.*
Açar sözlər: *siyasi diskurs, praqmatik strategiyalar, şəxs əvəzlikləri, siyasi legitimlik*	*Araşdırma göstərir ki, siyasi liderin nitqində leksik vahidlər (qiymətləndirici sözlər, emosional yüklü leksika, terminoloji seçimlər) və sintaktik konstruksiyalar (paralelizm, reiterasiya, vurğulayıcı cümlə modelləri) mətnin ideoloji strukturunu formalaşdırsa da, əsas diskursiv təsir praqmatik strategiyalar vasitəsilə reallaşır. Xüsusilə şəxs əvəzliklərinin – daha çox "biz" formasının – kontekstual və məqsədyönlü istifadəsi inklüziv kollektiv kimlik modelinin qurulmasına, "milli birlik" diskursunun gücləndirilməsinə və "mən–xalq" binar münasibətinin legitimləşdirilməsinə xidmət edir.*

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

MANIFESTATIONS OF AZERBAIJANI LANGUAGE IDENTITY IN POLITICAL DISCOURSE DURING THE 44-DAY PATRIOTIC WAR

Maliha Ibrahimli

ABSTRACT

This article examines the strategic organization of language in the discourse of a political leader during the 44-day Patriotic War, as well as its ideological and functional load, within the framework of a multi-level discursive analysis. The main objective of the study is to identify the interrelations of lexical-semantic, syntactic-structural, and pragmatic-interactional means in the model of political communication formed under wartime conditions, and to reveal which of them functions as the dominant discursive mechanism.

The study shows that, although lexical units (evaluative words, emotionally charged vocabulary, terminological choices) and syntactic constructions (parallelism, reiteration, emphatic sentence patterns) shape the ideological structure of the text, the primary discursive impact is realized through pragmatic strategies. In particular, the contextual and purposeful use of personal pronouns—most notably the form "we"—serves to construct an inclusive collective identity model, reinforce the "national unity" discourse, and legitimize the "leader–people" binary relationship.

Keywords: political discourse, pragmatic strategies, personal pronouns, political legitimacy

Tədqiqatın aktuallığı.

Müasir dilçilikdə dilin yalnız kommunikativ vasitə deyil, eyni zamanda **sosial, ideoloji və kimlikyaradıcı mexanizm** kimi çıxış etməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Xüsusilə siyasi böhranlar və hərbi qarşıdurmalar dövründə dilin funksional imkanları genişlənir, diskurs vasitəsilə **milli kimliyin yenidən qurulması və möhkəmləndirilməsi** prosesi intensiv xarakter alır. Bu baxımdan 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan dil kimliyinin diskursiv reallaşmasının öyrənilməsi üçün mühüm elmi material təqdim edir.

Tədqiqatın metodu

Empirik material kimi 44 günlük Vətən müharibəsi dövründə **Prezident İlham Əliyevin xalqa müraciətləri, rəsmi çıxışları və yerli və xarici mediaya verdiyi müsahibələr** seçilmişdir. Bu mətnlər **diskursiv kontekst, kommunikativ məqsəd** və **auditoriya faktoru** nəzərə alınmaqla təhlil edilmişdir.

Tədqiqatın yeniliyi

Tədqiqatda 44 günlük Vətən müharibəsi dövründə formalaşan siyasi diskurs Azərbaycan dil kimliyi prizmasından sistemli şəkildə təhlil edilmişdir. İlk dəfə olaraq Prezident İlham Əliyevin çıxışlarında informativ, ekspressiv və vokativ funksiyaların qarşılıqlı fəaliyyəti milli kimliyin diskursiv qurulması kontekstində araşdırılmışdır. Araşdırma nəticəsində müharibə şəraitində dilin koqnitiv və ideoloji təsir mexanizmləri müəyyənləşdirilmişdir.

GIRIŞ:

Siyasi liderlərin nitqi, xüsusilə müharibə və gərgin dövrlərdə, yalnız informasiya ötürmə funksiyasını daşımır, eyni zamanda ictimai rəyin formalaşmasına, milli birliyin möhkəmlənməsinə və siyasi kimliyin ifadəsinə xidmət edir. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Prezidenti İlham Əliyevin çıxışları və müsahibələri, həm daxili auditoriya, həm də beynəlxalq ictimaiyyət üçün strateji əhəmiyyət kəsb etmişdir. Bu çıxışlar siyasi diskursun müxtəlif funksiyalarını – təsir, inandırma və məlumatlandırma – bir arada göstərməklə, dilin hakimiyyət və milli kimliklə necə əlaqələndiyini açıq şəkildə nümayiş etdirir.

Əvvəllər siyasət və siyasi diskurs kontekstində aparılan tədqiqatlarda siyasi çıxışlar siyasi kommunikasiya daxilində ən əsas janrlardan biri kimi qəbul edilirdi [Chilton, 2004:158]. Tarix boyu bir sıra siyasi nitqlər yalnız öz dövrünün deyil, eyni zamanda kollektiv yaddaşın formalaşmasında mühüm rol oynamışdır. Buna misal olaraq, Dr. Martin Luther King Jr.-ın 1963-cü ildə Vaşinqtonda səsləndirdiyi **"I Have a Dream"** çıxışını və ya Sir Winston Churchill-in 1940-cı ildə Britaniya parlamentində etdiyi **"Blood, Sweat and Tears"** nitqini göstərmək olar.

Müasir siyasi diskursda isə bu ənənə yeni kontekstlərdə davam etmişdir. Xüsusilə, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı Prezident İlham Əliyevin siyasi çıxışlarında yer alan **"Dəmir yumruq"** ifadəsi ictimai mobilizasiya, milli birlik və siyasi legitimliyin qurulması baxımından mühüm diskursiv vasitə kimi çıxış etmişdir. Bu nümunə siyasi çıxışların müasir dövrdə də siyasi kommunikasiya və ideoloji təsir mexanizmləri baxımından aktuallığını qoruduğunu göstərir.

Bu məqalədə məqsəd 44 günlük müharibə dövründə İlham Əliyevin çıxışlarında istifadə etdiyi dil və diskurs strategiyalarını təhlil etmək, onların milli kimliyin formalaşmasına və ictimai rəyin yönləndirilməsinə təsirini araşdırmaqdır. Bunun üçün siyasi kommunikasiya nəzəriyyəsi və kritik diskurs analizi [Fairlogh,1995 :170] yanaşmaları əsasında çıxışların strukturu, leksik və sintaktik xüsusiyyətləri sistemli şəkildə qiymətləndiriləcəkdir.

Dil, bir cəmiyyətin mədəniyyəti və tarixi ilə sıx bağlı olduğundan, insanlar onu həm özlərini cəmiyyət daxilində tanıtmaq, həm də digər qruplardan fərqlənmək üçün sosial qarşılıqlı təsirlər vasitəsi kimi istifadə edirlər.[Kramsch 2009: 3] qeyd edir ki, "İnsanlar öz dillərini sosial kimliklərinin simvolu kimi görürlər." Tong və Cheung [2011:56] isə bildirirlər ki, dil müəyyən coğrafi bölgədə yerli danışanların həyat tərzini əks etdirir və onların sosial-mədəni kimliklərini daşıyır. Buna görə də, milli kimlikləri formalaşdırmaq və millətçiliyi təşviq etmək üçün əhalini dövlət daxilində vahid bir millət olaraq birləşdirmək məqsədilə ortaq dilin istifadəsi vacibdir. Dil, fərdləri vahid bir cəmiyyət və ümumi kimlik altında birləşdirməyə xidmət edən güclü bir vasitədir və həm fərd, həm də qrup kimliyinin əhəmiyyətli bir simvolik göstəricisi rolunu oynayır [Kaur & Shapii, 2018: 2]. Milli birlik və kollektiv identikliyin formalaşmasında ümumi dilin mövcudluğu həlledici əhəmiyyətə malikdir. Millətçilik ideologiyasında dil milli kimliyin qurulması və cəmiyyətin vahid struktur halında formalaşdırılması üçün əsas siyasi alətlərdən biri kimi çıxış edir. Dil siyasi kommunikasiyada mənaların yaradılması, inandırma mexanizmlərinin işə salınması və siyasi identikliklərin formalaşdırılması baxımından mühüm rol oynayır. Buna görə də dil və siyasət arasındakı əlaqənin dərindən öyrənilməsi siyasi diskursun, siyasi nəzəriyyələrin və praktikaların analizi üçün zəruri şərt hesab olunmalıdır.

Siyasi danışığın inandırıcı qüvvəsi dili bacarıqla istifadə etməyə bağlıdır. Çoxsaylı dil vasitələrinə sahib olan siyasətçilər siyasi hakimiyyət və nüfuzu effektiv şəkildə iddia edə bilirlər. Demokratik cəmiyyətlərdə siyasi hakimiyyət əsasən inandırıcı dil vasitəsilə qazanılır və qorunur. Sözlər həm alət, həm də silah rolunu oynayır və emosiyaları oyadır. Onlar oxucu və ya dinləyicidə müxtəlif reaksiyalar yaradan hissləri ifadə etmək üçün böyük gücə malikdir. Həmçinin, sözlər müəllifin və ya nitq söyləyənin duyğularını və mövqelərini göstərir. Lakoffun [1990:7]düzgün şəkildə vurğuladığı kimi, "dil siyasətdir, siyasət gücü təyin edir və güc insanların necə danışdığını və necə başa düşüldüyünü idarə edir." O, göstərir ki, siyasi manipulyasiyalar əsasən dil vasitəsilə həyata keçirilir, çünki dil güc münasibətlərini həm yaradır, həm də şərh edir. Beləliklə, dilin istifadəçilərinə verdiyi rollar onlara müəyyən səlahiyyətlər qazandırır və insanlar arasındakı münasibətləri izah edir. Güc dilin istifadəsində özünü göstərir: hər bir dil istifadəçisi "gizli niyyətlər əsasında dilin güc oyununu oynayır, sözə gətirilməyən isə söylənilmişdən qat-qat təsirlidir" .

Opeibi [2009:15] vurğulayır ki, dil siyasətin əsas vasitələrindən biridir, çünki siyasətçilərə onun şifahi kommunikasiya imkanlarını sınaqdan keçirmək və sözlərin manipulyativ gücündən məqsədlərinə uyğun istifadə etmək imkanı verir. Dil, namizədin manifesto, siyasi düşüncələri və partiya ideologiyalarının ifadə olunduğu kanal olaraq çıxış edir və eyni zamanda bu ideyaları sosial hərəkətlərə çevirmək, cəmiyyətdə dəyişiklik və davamlılığı təmin etmək üçün bir alət rolunu oynayır.Bu baxımdan, dil vətəndaşları inandırmaq, təşviq etmək və maarifləndirməkdə həlledici vasitədir və onun siyasətçilər üçün strateji əhəmiyyəti böyükdür [Akinkurolere, 2011:128]. Vətəndaşların siyasətçilərə dəstəyi yalnız verilən mesajdan deyil, həm də onun təqdimat tərzindən asılıdır ki, bu da namizədliyin və proqramların uğurunu müəyyən edir.

Chilton və Schaffner [1997:206] qeyd edirlər ki, siyasət dil olmadan mövcud ola bilməz və dilin sosial qrupların formalaşmasında istifadəsi geniş mənada siyasətin təməlini təşkil edir. Pelinka [2007: 129]isə əlavə edir ki, dil yalnız ədəbiyyat və dilçilik kontekstində öyrənilməməli, onu siyasi bir fenomen kimi təhlil etmək vacibdir. Eyni zamanda siyasət də diskursiv bir proses kimi nəzərdən keçirilməli və araşdırılmalıdır.

Bu tədqiqat dil və siyasət anlayışları arasında müəyyən terminoloji fərqləri müəyyənləşdirmək məqsədilə Chiltonun təqdim etdiyi tərifl ər kontekstində onları nəzərdən keçirir. Chilton dil üçün "bütün cəmiyyətlərdə insanların ünsiyyət qurmaq qabiliyyəti" anlayışını təqdim edərkən, siyasət üçün "idarəçilik sənəti" kimi bir tərif verir. Bu baxımdan, bu tədqiqat dili müxtəlif vəziyyətlərdə və ya fərqli təşkilatlarda qarşılıqlı əlaqə qurmaq və ya əməliyyat aparmaq üçün bir vasitə kimi qiymətləndirir; bu mühit isə ənənəvi olaraq siyasi kontekst kimi qəbul olunur [Chilton, 1998:688].

Dil, dinamik bir kommunikasiya vasitəsi olaraq, siyasi diskursun formalaşdırılmasında instrumental rol oynayır; yəni o, həm ictimai rəyin, həm də nəticədə bir ölkədə siyasət strukturunun formalaşmasını və yenidən qurulmasını təmin edir. Siyasi liderlərin ağızlarından çıxan sözlər, onların hekayə quruluşu və ritorik vasitələri siyasətin hansı istiqamətdə irəliləyə biləcəyini və hətta ictimai rəyin necə formalaşacağını müəyyən edən vacib amillərdir. Hudsonun [1978:49] arqumentinə görə, dil siyasətçilərin potensial güc əldə etməsi və ya mövcud gücü strateji şəkildə qoruması üçün bir resursdur

Siyasi danışığın inandırıcılığı birbaşa dilin səmərəli və məqsədyönlü istifadəsinə bağlıdır. Siyasətçilər geniş dil resurslarına sahib olduqda siyasi hakimiyyət və nüfuzu daha effektiv şəkildə qazana və qoruyurlar. Xüsusilə demokratik cəmiyyətlərdə siyasi güc əsasən inandırıcı nitqlər vasitəsilə əldə edilir və davam etdirilir. Sözlər həm alət, həm də silah rolunu oynayaraq emosiyaları oyadır, oxucu və ya dinləyicidə müxtəlif reaksiyalar yaradır və eyni zamanda müəllifin və ya nitq söyləyənin hisslərini və mövqeyini əks etdirir.

Sözlərin siyasətdə böyük əhəmiyyəti vardır. Prezidentlər və baş nazirlər kimi siyasətçilərin çıxışları və yazıları uzunmüddətli və dərin təsir göstərir və bu təsirlər ciddi şəkildə tədqiq edilməyə layiqdir. Siyasətçilər rəqiblərinə qarşı üstünlük qazanmaq məqsədilə nitq və yazı bacarıqlarını inkişaf etdirməyə çalışırlar. Onlar emosional dili ustalıqla istifadə edir, çox vaxt pozitiv çalarlarla auditoriyanı inandırır və onları hərəkətə gətirməyə çalışırlar [Macagno & Walton, 2014: 4].

Yeni seçilmiş prezidentin andiçmə mərasimi zamanı da ən vacib anlardan biri onun nitqidir. Andiçmə nitqi təmtəraqlı mərasimlə, coşqu ilə və gələcəyə dair yeni ümidlərlə müşayiət olunur, gələcəyin parlaq olacağı mesajını verir. Mövcud prezidentlərin çıxışları müxtəlif baxımlardan hər zaman özünəməxsus xarakter daşıyır. Hərçənd bu siyasi xarakterli nitqdir, adətən bir neçə illik, çox vaxt dörd illik fasilədən sonra təqdim olunur. Onun həm milli, həm də beynəlxalq səviyyədə əhəmiyyəti vardır və sərhədləri aşaraq geniş auditoriyaya təsir göstərir. Andiçmə nitqi həm də qələbə nitqi rolunu oynayır; bu, gələcək prezidentin uğurunu təsdiqləyir və müxalifət partiyasını yeni rəhbərliyi qəbul etməyə və onun səlahiyyətlərinə tabe olmağa məcbur edir. Beləliklə, andiçmə nitqi yeni sosial-siyasi və ideoloji dövrün dil baxımından başlanğıcını və normativ əsaslarını simvolizə edir.

Ümumiyyətlə Siyasi kommunikasiya tədqiqatçıları tərəfindən istifadə olunan tədqiqat yanaşmalarının çoxluğu əsrlər boyu inkişaf etmişdir, çünki siyasətin mahiyyəti dəyişməz olaraq qalır. Siyasət həmişə siyasi məzmunlu mesajların hazırlanması, göndərilməsi, qəbulu və işlənməsini əhatə etmişdir. Tədqiqat üsulları, əvvəllər siyasət üzrə alimlər və praktiklər tərəfindən insanların siyasət haqqında necə ünsiyyət qurduğunu müşahidə etməklə, nəticələri təhlil etməklə və bu nəticələrin niyə meydana gəldiyini və necə yaradıla və ya qarşısı alına biləcəyini təxmin etməklə başlamışdır.

Nick [2001: 39] bildirir ki, "diplomatiyada dil" termini müxtəlif şəkildə tərif oluna bilər. Bu, bir ölkə, tayfa və ya böyük bir insan qrupunun istifadə etdiyi nitq ola bilər. Eyni zamanda, diplomatik peşənin ehtiyaclarını ifadə etmək üçün müəyyən bir üsul və ya yol kimi də başa düşülə bilər: ifadə formaları, üslublar, davranış tərzləri və ya tonlar. Hər bir halda, diplomatiyada dilin istifadəsi böyük əhəmiyyət kəsb edir. Lakin problemdir ki, çox vaxt diplomatik nümayəndələr bütün iştirakçılar üçün ortaq olan tək bir dildə ünsiyyət qura bilmir. Bu fərqlilikləri nəzərə alaraq, diplomatiya qrupların və ya dövlətlərin nümayəndələri arasında danışıqları aparmaq, sülh, ticarət, müharibə, iqtisadiyyat və mədəniyyət sahələrində beynəlxalq əlaqələri inkişaf etdirmək sənəti və praktikası kimi tərif edilə bilər. Diplomatiya bacarığı dövlətləri bir-birindən fərqləndirən əsas xüsusiyyətlərdən biridir və diplomatiya təcrübəsi ilk şəhər-dövlətlərin yaranması dövrünə qədər gedib çıxır.

Diplomatik danışıqların vacib aspektlərindən biri dil və ya kommunikasiya qarşılıqlı təsirlərinin strateji vasitələridir. Diplomatiyada dilin istifadəsi mühümdür, çünki o, yalnız fikirləri çatdırmaq və ya ünsiyyət qurmaq aləti deyil, eyni zamanda diplomatik peşənin əsas mahiyyətini təşkil edir. Bu, peşənin yaranmasından etibarən belə olmuşdur. Buna görə də, qədim dövrlərdən başlayaraq, Misir fironlarının ilk elçiləri, Roma legatları və orta əsr Dubrovnik konsulları yaxşı təhsil almış, səlis danışan və çoxdilli şəxslər olmalı idilər.

Beləliklə, siyasi və diplomatik kommunikasiya dili özünəməxsus qaydalar, normalar, mədəni praqmatika və üslub nümunələrinə malikdir və bu xüsusiyyətlər onu struktur dil çərçivəsində dəqiq tərif etməyə imkan vermir. Buna görə də müasir dilçilikdə fərdlərin dünyagörüşünü və dil vasitəsilə anlayışını öyrənən **lingvo-koqnitiv yanaşmaların** tətbiqi rasional hesab olunur.

Müasir dövrdə tədqiqat metodları daha planlı və sistematik xarakter almışdır; əvvəlcə hipotezlər formalaşdırılır və sonra müxtəlif metodlarla yoxlanılır.

Kommunikasiya anlayışları daha dəqiq tərif edilmiş, onları sınamaq üçün daha yaxşı indikatorlar və mürəkkəb üsullar hazırlanmışdır. Məsələn, kütləvi kommunikasiya təsirinə dair tədqiqatlarda əhəmiyyətli olan **"media istifadəsi"** anlayışı zamanla xeyli dəqiqləşdirilmişdir. Alimlər onu yalnız "müvafiq vasitəyə ümumi məruz qalma" kimi şərh etmək əvəzinə, məzmuna sadəcə məruz qalma və məzmuna diqqət ayırma, həmçinin məzmunun müəyyən aspektlərinə məruz qalma və ya diqqət ayırma kimi fərqləndirirlər. Daha həssas media istifadə ölçüləri və dəqiq metodlarla aparılan yoxlamalar nəticəsində siyasi təsirlər daha dəqiq şəkildə müəyyən edilə bilir.

Siyasi liderlər nitqlərində şəxs əvəzliklərini müxtəlif strateji məqsədlərlə istifadə edirlər [Gastil, 1992:469]. Bir tərəfdən, əvəzliklər onların ideoloji mövqeyini göstərir; məsələn, "biz" və ya "o" əvəzlikləri hökumətin mövqeyini və ictimai idarəçilik mövqeyini ifadə etmək üçün seçilir. Digər tərəfdən, şəxs əvəzlikləri nitq söyləyənin auditoriya ilə yaxınlığını və ya məsafəsini vurğulamağa xidmət edir. Məsələn, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə "mən" əvəzliyindən şəxsi qərar və qətiyyət mesajını çatdırmaq üçün, "biz" əvəzliyindən isə xalq və ordu ilə həmrəylik yaratmaq məqsədilə istifadə etmişdir. Bundan əlavə, "biz" əvəzliyi auditoriyanı müzakirəyə daxil etmək və onları ideoloji və emosional baxımdan birlikdə iştirak etməyə səsləmək üçün effektiv vasitədir (Maitland & Wilson, 1987:495]. Eyni zamanda, əvəzliklər məsuliyyətin fərqli şəkildə paylanmasına imkan yaradır; məsələn, "mən," "biz" və ya "o" istifadəsi müəyyən qərar və hadisələr üçün məsuliyyətin lider, qrup və ya qurum arasında necə bölündüyünü göstərə bilər [Wilson, 1990:346]. Margaret Thatcher "I" əvəzliyini ünsiyyət yaratmaq üçün, "we" əvəzliyini isə tərəfdarlarla həmrəylik qurmaq və opponentlərdən məsafə

saxlamaq üçün ustalıqla istifadə etmişdir [Maitland & Wilson, 1987:498]. "we" əvəzliyindən istifadə dinləyiciləri müzakirəyə daxil etməyə və onları daha açıq etməyə xidmət edir. Əvəzliklər məsuliyyətin fərqli şəkildə paylanmasına imkan verir; məsələn, oxşar cümlələrdə "it," "I" və ya "we" istifadə etmək məsuliyyətin müxtəlif yollarla bölüşdürülməsinə səbəb olur [Wilson, 1987:495]. Bundan əlavə, əvəzliklər qeyri-müəyyənlik və ya dəqiqlik yaratmaq üçün istifadə edilə bilər, çətin müsahibələrdə birbaşa cavabdan qaçmağa kömək edir [Bull & Fetzer, 2006:30]. "We" əvəzliyi həmçinin sosial qrupların və kimliklərin formalaşmasına xidmət edir [Helmbrecht, 2002:32]. Lakoff [1990:15] qeyd edir ki, əvəzliklər incə təsir göstərir; Reagan "we" əvəzliyindən həm daxil edən, həm də ayrılaşdıran şəkildə istifadə edərək amerikalılar arasında həm həmrəylik yaratmış, həm də öz administrasiyasını fərqləndirmişdir.

Sosial identitet və qrup əlaqələrinin formalaşmasında da əvəzliklərin rolu əhəmiyyətlidir. "Biz" əvəzliyi həm daxili həmrəylik yaradır, həm də müəyyən qrupları və lideri digərlərindən fərqləndirir [Helmbrecht, 2002:35] Misal üçün, müharibə nitqlərində Əliyev həm "biz" əvəzliyindən istifadə edərək Azərbaycan xalqı və ordusunu birləşdirir, həm də daxili və xarici auditoriyaya liderin və administrasiyanın mövqeyini fərqləndirir. Bu, nitqin həm strateji, həm də ideoloji funksiyasını gücləndirir.

Məsələn, müsahibədə Əliyev deyir: *"Our position was very clear from the very beginning… we will fight until the end if Armenia does not make a commitment…"* Burada "we" əvəzliyi Azərbaycan xalqını və ordusunu birləşdirərək milli həmrəyliyi gücləndirir və dinləyiciləri həm ideoloji, həm də emosional baxımdan müharibənin nəticələrinə birgə aid hiss etməyə sövq edir. Eyni zamanda, "our position" və "we will fight" ifadələri vasitəsilə məsuliyyət kollektiv şəkildə paylanır, dövlət və xalq arasındakı əlaqə diskursiv olaraq təsbit olunur. Bu, nəzəriyyədə vurğulandığı kimi, əvəzliklərin həm məsuliyyətin bölüşdürülməsi, həm də sosial identitetin formalaşdırılması funksiyasını praktik nümunədə göstərir [Maitland & Wilson, 1987:496].

Beləliklə, BBC müsahibəsi həm nəzəri çərçivəni təsdiqləyir, həm də göstərir ki, şəxs əvəzlikləri siyasi lider nitqində yalnız dil strukturunun bir elementi deyil, həm də ideoloji mesajın, milli birlik hissinin və məsuliyyətin strateji şəkildə ötürülməsinə xidmət edən güclü diskurs alətidir.

29 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" verilişində Ermənistan-Azərbaycan təmas xəttindəki son vəziyyətlə bağlı sualları cavablandırmışdır. Bu müsahibə 44 günlük müharibənin başlanğıcındakı kontekstdə verilmiş və geopolitik, hərbi və diplomatik narativlərlə zəngin bir diskurs təşkil etmişdir. Belə bir kontekstdə danışığın metaforik səciyyəsi nitqin ideoloji funksiyasını gücləndirir və Azərbaycan ictimaiyyətində milli həmrəyliyi formalaşdırmaq üçün strateji rol oynayır.

*"**We were forced to give an adequate response to the aggressor and thus protect our people, our people and our land. Thus, for the third day already, fierce battles have been going on, as a result of which the Azerbaijani army has liberated a number of settlements from occupation, and also occupied strategic heights in different directions.**"*

Verilişdə cənab President tərəfindən istifadəsi qeyd olunan metaforik ifadələrdən biri **"agresiyaya adekvat cavab vermək"** və **"öz xalqımızı, öz torpağımızı müdafiə etmək"** metaforik strukturlarıdır. Bu cür ifadələr müharibəni yalnız hərbi qarşıdurma kimi deyil, **milli müdafiə və haqqın bərpası** kimi təqdim edir. Mətnin bu hissəsində **müharibə diskursu ədalət və qorunma metaforasına çevrilir**, yəni Azərbaycan ordusunun hərəkətləri "öz torpağını qorumaq" və "agresiyanı adekvat cavabla yatırmaq" kimi simvolik fiqurlar vasitəsilə leqal və

moral çərçivədə qurulur. Metaforik təhlildən görünür ki, müsahibədə **müharibə müzakirə olunan sosial hadisə kimi deyil, əksinə, sosial varlığın müdafiəsi** kimi təsvir edilir. Kontekstual olaraq bu diskurs, Azərbaycan cəmiyyətinə və beynəlxalq auditoriyaya "müharibə yalnız reaksiya və özünü müdafiə aktıdır" mesajını verir. Bu, Lakoff və Johnson-un [1980:12] fikrincə metaforların sosial və siyasi reallığı formalaşdırmaqda mərkəzi əhəmiyyət daşıdığı fikiri ilə uzlaşır: metafor vasitəsilə **abstrakt ideyalar (milli birlik, müdafiə, ədalət)** daha konkret anlayışlar (müharibə, müdafiə, torpaq) ilə əlaqələndirilir. Əliyev müsahibədə **müharibə metaforlarını** həm də **hakimiyyətlə legitimlik arasında əlaqə yaratmaq üçün** istifadə edir. Məsələn, "biz öz xalqımızı və torpağımızı müdafiə etməli idik" kimi ifadə, müharibə kontekstini **təcrid olunmuş hərbi əməliyyatlardan daha çox kollektiv kimliyin və dövlətin varlığını qoruyan bir proses** kimi təsvir edir. Bu, həm də danışanın lider kimi məsuliyyətini, həm də cəmiyyətlə birlikdə hərəkətini vurğulamaq üçün metaforik strategiyadır.

Bu metaforik strukturların istifadəsi Prezidentin nitqində **ictimai həmrəyliyi gücləndirməyə xidmət edir**: "müdafiə", "torpaq", "milli hiss" kimi terminlər dinləyicidə dərin emosional rezonans yaradır və onları müharibə kontekstində birgə davranışa təşviq edir. Beləliklə metaforlar yalnız məna ötürmür, həm də auditoriyanın psixoloji və ideoloji mövqeyini müəyyən edir. İlham Əliyevin 29 sentyabr 2020-ci il müsahibəsində istifadə olunan metaforlar yalnız hərbi və siyasi hadisələri təsvir etmir, eyni zamanda bu hadisələrin Azərbaycan ictimaiyyətində **milli həmrəyliyin, müdafiə və ədalət hisslərinin** formalaşdırılmasına mühüm töhfə verir. Bu, siyasi diskursun metaforik vasitələrlə necə strateji dəyərləndirildiyini və ideoloji mesajın necə ötürüldüyünü göstərir.

Əslində, media mətnlərinin çox az bir hissəsi tamamilə informativ xarakter daşıyır; əksər hallarda bu mətnlər həm ekspressiv, həm də vokativ (yəni diqqət çəkməyə və müraciət etməyə yönəlmiş) xüsusiyyətlər göstərir. Bu üç funksiyadan hər hansı biri müəyyən mətndə daha çox və ya az nəzərə çarpır. Məsələn, informativ və vokativ mətnlərdə ekspressiv funksiyanın mövcudluğu çox zaman implisit şəkildə müşahidə olunur. Həmçinin, bir çox informativ mətnlərdə vokativ element ya mətn boyunca bir xətt kimi davam edir, ya da yalnız tövsiyə, fikir və mühakimə ilə bağlı müəyyən hissələrdə ortaya çıxır. Digər tərəfdən, heç bir media mətnini bütövlükdə yalnız informativ hesab etmək mümkün deyil; onun müəyyən hissələrində subyektivlik də özünü göstərir. Ekspressiv mətnlər də adətən məlumat vermə funksiyasını yerinə yetirsə də, bu mətnlərdə vokativ funksiyanın səviyyəsi dəyişkənlik göstərir. Nəticə etibarilə, ümumi məqsəd oxucunu məlumatlandırmaqla yanaşı, onu inandırmaq, təsir etmək və müəyyən davranışa yönəltməkdən ibarət olsa da, bu strategiyaların birbaşa və ya dolayı yolla reallaşması diskurs təhlilində maraq kəsb edir. Ümumilikdə isə məqsəd, mətnin mümkün qədər səmərəli şəkildə qəbul edənə çatdırılması, lazımi koqnitiv təsirin yaradılması və nəticədə diskursda anlaşmanın təmin edilməsidir.[A.Məmmədov:M.Məmmədov 2013: 39]. Bu xüsusiyyətlər 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan mediasında və siyasi liderlərin çıxışlarında xüsusilə aydın müşahidə olunur. Həmin mətnlərdə informativ funksiya milli kimliyin möhkəmləndirilməsi, emosional səfərbərlik və ictimai rəyin yönləndirilməsi ilə sıx şəkildə uzlaşır. Məsələn

"***Bu gün Azərbaycan Ordusu cəbhənin müxtəlif istiqamətlərində bir neçə yaşayış məntəqəsini işğaldan azad etmişdir.***"

Mətndə informativ funksiya açıq şəkildə dominantdır və əsasən faktların təqdim edilməsinə xidmət edir. Ekspressivlik isə implisit şəkildə təzahür edir; məsələn, "azad etmişdir" leksik

vahidi emosional yüklü olub qələbə semantikasını ifadə edir. Vokativlik birbaşa çağırış formasında görünməsə də, auditoriyada qürur və etimad hissi yaradaraq dolayı təsir göstərir. Bu üç funksiya mətndə qarşılıqlı şəkildə işləyərək həm məlumatlandırma, həm də emosional və motivasiyaedici təsir təmin edir. Beləliklə, mətn yalnız informativ məqsəd daşımaqla kifayətlənmir, həm də oxucuda müəyyən koqnitiv və emosional reaksiya yaratmaq potensialına malikdir. Bu strategiya xüsusilə müharibə diskursunda dilin identifikasiya və təsir funksiyasını vurğulamaq baxımından önəmlidir.

"Biz öz torpaqlarımızda vuruşuruq, biz haqlı mübarizə aparırıq və sona qədər gedəcəyik."

Bu cümlədə isə əsas məqsəd müharibənin səbəblərini izah etmək və mövqenin legitimliyini təqdim etməkdir. Bu yanaşma oxucuya hadisələrin kontekstini və dövlət siyasətinin əsaslandırılmasını təqdim edir. Vokativ funksiya isə birbaşa çağırış formasında olmasa da, "sona qədər gedəcəyik" ifadəsi vasitəsilə auditoriyanı psixoloji səfərbərliyə səsləyir. Beləliklə, mətndə iştirakçılar həm məlumatlandırılır, həm də motivasiya olunur. Ekspressiv funksiyanın mövcudluğu isə "haqlı mübarizə" və "öz torpaqlarımız" kimi leksik vahidlərdə özünü göstərir. Bu ifadələr emosional yüklü olub milli kimliyin və vətənpərvərlik hisslərinin ön plana çıxmasına xidmət edir. Mətndəki bu üç funksiyanın qarşılıqlı təsiri həm informativ, həm emosional, həm də motivasiyaedici effekt yaradır. Belə strukturlanmış diskurs oxucuda həm bilik, həm də psixoloji reaksiya doğurur. Bu yanaşma xüsusilə müharibə dövründə dilin identifikasiya və kollektiv mənsubiyyət funksiyasını vurğulamaq baxımından əhəmiyyətlidir. Nəticədə, mətn həm faktların ötürülməsi, həm də milli kimliyin möhkəmləndirilməsi məqsədinə xidmət edən çoxfunksiyalı kommunikasiyaya çevrilir.

"Qarabağ Azərbaycandır və nida işarəsi!"

Qarabağ Azərbaycandır!" ifadəsi qısa və lakin yüksək təsirli bir şüar olaraq həm ekspressiv, həm informativ, həm də vokativ funksiyaları özündə birləşdirir. Burada ekspressiv funksiya maksimal səviyyədədir; leksik və sintaktik quruluşun sadəliyi ilə ifadə edilən şüar auditoriada güclü emosional reaksiya yaratmaq potensialına malikdir. İnformativlik baxımından mətn minimal səviyyədədir, lakin tamamilə yox saymaq olmaz, çünki şüar həm də əraziyə dair bir faktı və Azərbaycanın siyasi mövqeyini bildirir. Vokativ funksiyanın rolu isə şüar xarakteri ilə daha aydın görünür; ifadə auditoriyanı birbaşa və dolayı yolla çağırışa səsləyir, kütləvi emosional və psixoloji reaksiyanı hədəfləyir. Bu şüarın ekspressiv və vokativ komponentləri milli kimliyin möhkəmləndirilməsi və vətənpərvərlik hisslərinin təşviqi baxımından kritik əhəmiyyət kəsb edir. Eyni zamanda, minimal informativlik onun siyasi və kontekstual mənasını da təmin edir, beləliklə şüar yalnız emosional deyil, həm də məzmunlu kommunikativ vasitəyə çevrilir. Diskurs analizində bu nümunə göstərir ki, qısa və leksik olaraq sadə ifadələr belə yüksək koqnitiv və emosional təsir yarada bilər. Mətnin bu üç funksiyadan ibarət çoxsahəli strukturu, xüsusilə müharibə və milli münaqişə kontekstində, dilin həm identifikasiya, həm də mobilizasiyaedici rolunu vurğulayır. Nəticədə, "Qarabağ Azərbaycandır!" şüarı həm milli birliyi ifadə edən, həm də ictimaiyyətin emosional və siyasi səfərbərliyini stimullaşdıran güclü kommunikasiyadır.

"***Biz beynəlxalq hüquq çərçivəsində hərəkət edirik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik."***

Mətndə istifadə olunan ifadə "Biz beynəlxalq hüquq çərçivəsində hərəkət edirik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik" koqnitiv effektə yönəlmiş kompleks

kommunikativ strategiyanın nümunəsi kimi qiymətləndirilə bilər. Burada informativlik açıq şəkildə ön plandadır; ifadə vasitəsilə hüquqi arqument təqdim olunur və Azərbaycan tərəfinin hərəkətlərinin beynəlxalq hüquq normaları çərçivəsində baş verdiyi vurğulanır. Bu məlumatlandırıcı funksiya auditoriyada situasiyanın obyektiv qiymətləndirilməsini təmin etmək məqsədini güdür. Vokativlik aspekti isə birbaşa çağırış şəklində olmasa da, beynəlxalq auditoriyanı müəyyən mövqeyi qəbul etməyə yönəldir; beləliklə, mətn həm informasiya vermə, həm də təsir etmə funksiyasını yerinə yetirir. Ekspressivlik zəif səviyyədədir, lakin "icra edirik" felinin qəti və məqsədli forması siyasi iradəni ifadə edir və Azərbaycan tərəfinin məsuliyyət və qərarlılığını vurğulayır. Bu, mətnin həm normativ, həm də psixoloji təsirini gücləndirir, oxucu və ya auditoriyada koqnitiv reaksiya yaratmaq potensialını artırır. Strateji baxımdan, belə ifadələr yalnız faktları ötürməklə kifayətlənmir, həm də beynəlxalq ictimaiyyətin qəbulunu və dəstəyini formalaşdırmağa yönəlmiş subtil çağırış funksiyasını daşıyır. Nəticədə, bu cür ifadələr çoxfunksiyalı diskursal vahid kimi çıxış edir və hüquqi, siyasi və koqnitiv səviyyələrdə qarşılıqlı təsir yaratmaq məqsədini güdür. Belə yanaşma, xüsusilə xarici mediaya verilən müsahibələr kontekstində, Azərbaycan dilinin siyasi diskursda identifikasiya və mövqeyi müdafiəedici rolunu açıq şəkildə ortaya qoyur.

Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründəki çıxışları göstərir ki, həmin diskursda informativ, ekspressiv və vokativ funksiyalar bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı şəkildə reallaşır. Bu funksional sintez Azərbaycan dil kimliyinin möhkəmləndirilməsi, milli şüurun formalaşdırılması və auditoriyada güclü koqnitiv təsirin yaradılmasına xidmət edir.

NƏTİCƏ

Siyasət və dil arasındakı əlaqə son dərəcə mürəkkəb və çoxqatlı xarakter daşıyır. Dil yalnız kommunikasiya vasitəsi kimi çıxış etmir, eyni zamanda gücləndirmə, legitimləşdirmə və mədəni irsin qorunması funksiyalarını yerinə yetirir. Siyasi kontekstdə isə dil identiklik, suverenlik və hüquqların ifadəsi ilə bilavasitə bağlıdır. Bu məqalə siyasətçilərin kommunikativ fəaliyyətlərində dildən necə strateji şəkildə istifadə etdiklərini araşdırır. Xüsusilə, siyasətçilərin çətin və narahat suallardan yayınmaq üçün qeyri-müəyyən ifadələrə (equivocation) müraciət etmə bacarıqları, alqış və ictimai dəstək qazanmağa yönəlmiş ritorik vasitələrdən istifadələri, eləcə də şəxsi əvəzliklər vasitəsilə mövqe, münasibət, sosial məsafə və motivasiyaları ötürmə strategiyaları diqqət mərkəzində saxlanılır. Bundan əlavə, məqalədə siyasi kommunikasiya çərçivəsində metaforaların rolu təhlil edilir. Lakoff və Johnson (1980) göstərmişdir ki, metaforalar müəyyən aspektləri ön plana çıxarıb digərlərini kölgədə qoymaqla mürəkkəb siyasi mesajları sadələşdirə bilir; lakin bu proses eyni zamanda reallığın təhrif olunmuş qavranılmasına da yol açа bilər. Məsələn, Körfəz müharibəsi zamanı ABŞ-ın Buş administrasiyasının hərbi müdaxiləni metaforik çərçivələr vasitəsilə legitimləşdirməsi göstərir ki, müharibə diskursunda metaforalar təkcə izahedici deyil, eyni zamanda ideoloji əsaslandırma funksiyası da daşıyır. Oxşar diskursiv strategiyalar 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq və yerli mediaya verdiyi müsahibələrdə də müşahidə olunur.

ƏDƏBİYYAT

1. Akinkurolere, S. O. (2011). *A speech act analysis of selected political speeches of President Umaru Musa Yar'Adua* (Unpublished master's thesis). Obafemi Awolowo University, Ile-Ife.125-221
2. Atkinson, J. M. (1983). Two devices for generating audience approval: A comparative study of public discourse and text.
3. Riemsdijk (Eds.), *Connectedness in sentence, text and discourse* (pp. 199–236). Tilburg Papers in Linguistics.
4. Bull, P. and Fetzer, A. (2006). Who are we and who are you? The strategic use of forms of address in political interviews. Text and Talk. 1-35
5. Bell, D. (1988). Political linguistics and international negotiations. *Negotiations Journal*, 4(3), 233–246.
6. Carbó, T. (1992). Towards an interpretation of interruptions in Mexican parliamentary discourse. *Discourse & Society*, 3, 25–45.
7. Chilton, P. (1998). Politics and language. In J. L. Mey (Ed.), *Concise encyclopedia of pragmatics* (pp. 688–694).
8. Chilton, P. (2004). *Analysing political discourse: Theory and practice*. Routledge. (p143-225)
9. Chilton, P., & Schäffner, C. (1997). Discourse and politics. In T. A. van Dijk (Ed.), *Discourse as social interaction* (pp. 206–230).
10. Fairclough, N. (1995). *Critical discourse analysis: The critical study of language*. Longman.p 158-267
11. Fairclough, N. (2000). *Language and power* (2nd ed.). Longman.
12. Fairclough, N. (2000). *New Labour, new language?* Routledge.
13. Gastil, J. (1992). Undemocratic discourse: A review of theory and research on political discourse. *Discourse & Society*,469–500.
14. Helmbrecht, J. (2002). Grammar and function of *we*. In A. Duszak (Ed.), *Us and others* (pp. 31–50). John Benjamins.
15. Hudson, K. (1978). *The language of modern politics*. (p. 48-75)
16. Kaid, L. L. (Ed.). (2004). *Handbook of political communication research*. Lawrence Erlbaum Associates.
17. Kaur, P. and Shapii, A. (2018) Language and Nationalism in Malaysia: A Language Policy perspective. International Journal of Low, Government and Communication, 3 (7), 1-10.
18. Kramsch, C (2009). Language and Culture. London. Oxford University Press (p 3-8)
19. Lakoff, G., & Johnson, M. (1980). *Metaphors we live by*. University of Chicago Press.p 8-21
20. Lakoff, R. (1990). *Talking power*. Basic Books. 7-18
21. Macagno, F., & Walton, D. (2014). *Emotive language in argumentation*. Cambridge University Press. (p4-11)
22. Maitland, K., & Wilson, J. (1987). Ideological conflict and pronominal resolution. *Journal of Pragmatics*, 11, 495–512.
23. Məmmədov, A. (2018). *Studies in text and discourse*. Bakı.
24. Məmmədov, A., & Məmmədov, M. (2013). *Diskurs tədqiqi*. Bakı2013. P 39
25. Opeibi, B. O. (2009). *Discourse, politics and the 1993 presidential election campaigns in Nigeria*. Nouvele Communications Limited. 14-21
26. Pelinka, A. (2007). Language as a political category: The viewpoint of political science. *Journal of Language and Politics*, 6(1), 129–143.
27. Schäffner, C. (1996). Editorial: Political speeches and discourse analysis. *Current Issues in Language and Society*, 3.
28. Tong, H.K, and Cheung, L.H (2011). Cultural Identity and Language: A Proposed Framework for Cultural Globalization and Glocalization. Journal of Multilingual and Multicultural Development 32(1), 55-69.
29. Wilson, J. (1990). *Politically speaking*. Basil Blackwell. (p345 458)
30. Nick, S. (2001). Language in diplomacy. In *Language in diplomacy* (p. 39). University of Malta.
31. President of the Republic of Azerbaijan. (n.d.). *Official website*. https://www.president.az